# Auditoriyadankənar tədbirlərdə tələbələrin bədii yaradıcılıq qabiliyyətlərinin formalaşdırılması

**Aytən Mövsüm qızı Mövsümlü**
*fəlsəfə doktoru proqramı üzrə doktorant,*
*Azərbaycan Respublikasının Təhsil İnstitutu*
**E-mail:** a.movsumlu@mail.ru

**Rəyçilər:** p.ü.e.d., prof. H.H. Əhmədov,
p.ü.e.d., prof. V.C. Xəlilov

**Açar sözlər:** ali məktəb, auditoriydankənar tədbirlər, ali məktəb tələbələri, bədii yaradıcılıq, yaradıcı qabiliyyətlər, pedaqoji istedad, yaradıcı fəaliyyət, ümumi qabiliyyətlər, xüsusi qabiliyyətlər

**Ключевые слова:** средняя школа, внеклассная деятельность, студенты вузов, художественное творчество, творческие способности, педагогический талант, творческая деятельность, общие способности, специальные способности

**Keu words:** high school, extracurricular activities, university students, creative talent, pedagogical talent, creativity, creativity general talents, special talents

Azərbaycanda həyata keçirilən təhsil islahatlarına dair direktiv sənədlərdə tələbələrin bədii yaradıcılıq qabiliyyətlərinin formalaşdırılması ali məktəb rəhbərləri və auditoriyadankənar tədbirlərə başçılıq edən müəllimlər, habelə bu sahədə çalışan mütəxəssislər qarşısında mühüm vəzifələr qoyulur. Bu vəzifələrin müvəffəqiyyətlə həlli üçün auditoriyadankənar tədbirləri məqsədyönlü şəkildə təşkil edərkən ilk növbədə tələbələrin yaradıcı qabiliyyətlərinin formalaşdırılmasına diqqət yetirmək məqsədəmüvafiqdir. Bunun üçün bədii yaradıcılıq işinin tiplərinə, növlərinə və formalarına uyğun müsabiqə komissiyası yaratmaq lazım gəlir. Müsabiqə komissiyası auditoriyadankənar tədbirlər üçün yararlı olan tələbələri seçərkən onların hansı yaradıcı qabiliyyətlərə malik olmalarını müəyyənləşdirməlidir.

Təcrübə və müşahidələr göstərir ki, auditoriyadan tədbirlərdə iştirak edən tələbələrin yaradıcı qabiliyyətlərinin olması zəruri sayılsa da, bəzi hallarda yaradıcı qabiliyyətlərə malik olmayan tələbələrin belə tədbirlərə cəlb olunması səbəbindən tədbirlər sönük keçir. Ona görə də tələbələrin yaradıcı qabiliyyətlərə malik olmasını müəyyənləşdirmək vacibir. Tələbələrin yaradıcı qabiliyyətləri deyəndə onların fəaliyyətləri prosesində gördükləri işlərin müvəffəqiyyətlə icrasının nəticələri nəzərdə tutulur. Yəni hər bir tələbənin yaradıcı fəaliyyəti prosesində əldə etdikləri biliklərə, bacarıqlara yiyələnmə dinamikası onun qabiliyyətlərinin aşkara çıxarılmasını təmin edir. Psixoloqlar göstərirlər ki, qabiliyyətlər fəaliyyətin müvəffəqiyyətlə icrasının şərtini təşkil edir. Qabiliyyətlər şəxsiyyətin fərdi-psixoloji xüsusiyyətləri olub müəyyən fəaliyyətin müvəffəqiyyətli icrasının şərtini təşkil edir və onun üçün zəruri olan bilik, bacarıq və vərdişlərə yiyələnmə dinamikasındakı fərqlərdə ifadə olunur (2, s. 423). Deməli, hər bir tələbənin yaradıcı qabiliyyəti onun fəaliyyətinin müvəffəqiyyətli icrasının şərtini o vaxt təşkil edə bilər ki, fəaliyyətin müvəffəqiyyətli icrası üçün zəruri sayılan bilik, bacarıq, vərdişlərə yiyələnmə dinamikasında özünü ifadə etsin, əyani şəkildə göstərsin. Bu, o deməkdir ki, hər hansı bir yaradıcılıq növü, sahəsi ilə məşqul olan tələbələrin həmin yaradıcılıq növünə, sahəsinə uyğun biliklər sistemi olmalıdır. Məhz belə olduğu təqdirdə yaradıcı fəaliyyət prosesində həmin biliklər həyati bacarıqlara və bir sıra zəruri vərdişlərə çevrilir. Deməli, tələbələrin yara-

dıcı fəaliyyətləri prosesində əldə etdikləri bilik, bacarıq, vərdişlər sisteminin dinamik inkişafı onların qabiliyyətləri kimi ifadə olunur.

Yaradıcı fəaliyyət prosesində müşahidə olunan belə qabiliyyətlər özünü istedad elementləri kimi göstərir. Yeri gəlmişkən, elmi ədəbiyyatda bəzi müəlliflər qabiliyyətləri istedad kimi təqdim edirlər. Halbuki istedad yalnız qabiliyyətlərin dinamik inkişafının nəticələri kimi özünü göstərir. Ona görə də, qabiliyyət və istedad anlayışlarının fərqləndirilməsinə də diqqət yetirmək lazımdır. Psixoloji ədəbiyyatda istedad problemi xüsusi yer tutur. Psixoloqlar bunu, hər şeydən əvvəl onunla bağlı hesab edirlər ki, qabiliyyətlərin fəaliyyət prosesində qarşılıqlı əlaqəsinin təhlili təkcə elmi-nəzəri məsələ olaraq qalmır. Onun mühüm praktik əhəmiyyəti də vardır. Təcrübə göstərir ki, insanın hər hansı bir fəaliyyəti müvəffəqiyyətlə icra etməsi üçün tək bir qabiliyyət deyil, bir neçə qabiliyyət iştirak edir. Bu baxımdan qabiliyyətlərin bir və ya bir neçə fəaliyyətin müvəffəqiyyətli icrası üçün şərt olan özünəməxsus birliyi istedad adlanır (4, s. 418).

Müşahidələr göstərir ki, ali məktəb tələbələri öz fəaliyyətləri dövründə bir neçə qabiliyyət növlərini özündə ehtiva edən istedad elementlərinə malik olurlar. Lakin təhsil aldıqları ali məktəblərdə həmin yaradıcı qabiliyyətlərdən yaranan istedad motivlərindən yararlana bilmirlər. Ona görə ki, bunların bir neçə səbəbdən baş verməsi müşahidə olunur. Əsas səbəblərdən biri tələbələrin yaradıcı fəaliyyətləri dövründə intizama riayət etməmələridir. Yaradıcı fəaliyyətin müvəffəqiyyətli icrasına yalnız intizama riayət etməklə nail olmaq mümkündür. Ona görə ki, intizam hissi insanın bütün yaradıcı fəaliyyəti zamanı həmin fəaliyyətin normal tənzimlənməsini təmin edir. Bu mənada tələbələrin yaradıcı fəaliyyətə istiqamətləndirilməsi zamanı onlarda intizam hislərinin yaradılmasına da diqqət yetirmək lazımdır. İntizam hisləri tələbənin yaradıcı fəaliyyət növünü seçməsini, məşqlərə davam etməsini, tapşırıqlarını vaxtında yerinə yetirməsini, mütəmadi axtarışlar aparmasını, yoldaşları ilə nümunəvi davranmasını, yaradıcı fəaliyyət prosesində müvəffəqiyyət qazanmasını, gələcəyə ümidlə baxmasını düzgün tənzimləmiş olur. Əksinə, intizama riayət etməyən tələbələr öz yaradıcı qabiliyyətlərindən düzgün yararlana bilmir, bütün fəaliyyəti boyu geridə qalırlar.

İnsanda daimi intizam hissinin olması və onun müntəzəm surətdə insanın hərəkətlərində təzahür etməsi çox mühüm şərtdir. Əks təqdirdə, insanda əsası olmayan belə bir təsəvvür, illuziya yarana bilər ki, o istədiyi vaxt özünü bu və ya digər şirnikləndirici şeylərdən çəkindirə bilər.

İradi hərəkətlər sahəsində aparılan müntəzəm özünütərbiyə işi insanda iradi fəallıq halı yaratmaqla, onu böyük həyati məsələlər naminə öz şəxsiyyətində dəyərli keyfiyyətlər tərbiyə etmək uğrunda mübarizəyə daxilən hazırlanmış olur (3, s. 421).

Ümumiyyətlə, tələbələrin özünütərbiyəsi, özünütəlqini, özünəhəssaslığı bədii yaradıcılıq fəaliyyətinə istiqamətləndirilməsi zamanı onların intizam hislərini yüksəltmiş olur. İntizam hislərinə yiyələnməyən tələbələr bir sıra qabiliyyətlərə və hətta istedad motivlərinə məxsus olduqları halda qərarlar qəbul etməkdə çətinlik çəkirlər. Nitq mədəniyyəti, aparıcılıq, ifaçılıq, aktyorluq, rəssamlıq, rejissorluq və bu kimi digər qabiliyyətlərə malik olan tələbələr özfəaliyyət motivlərinin tənzimlənməsində çətinlik çəkirlər. Özfəaliyyət motivləri deyəndə tələbələrin fəaliyyətləri prosesindəki fərdi yaradıcılıq motivləri nəzərdə tutulur.

Fəaliyyət motivləri bir çox hallarda fərdin, yəni tələbənin motivlər mübarizəsi fonunda özünü göstərir. Bu, o deməkdir ki, bir sıra fərdi yaradıcılıq motivlərinə malik olan tələbələr həmin fərdi yaradıcılıq qabiliyyətlərinin motivləşdirilməsinə səy göstərsələr də, buna nail ola bilmirlər. Ona görə ki, onlar bir çox hallarda asudə vaxtlarından səmərəli istifadə etmələrinə qərar verə bilmirlər. Burada tələbələrin öz asudə vaxtlarından səmərəli istifadə etmələri üçün

düzgün qərar vermələri mühüm əhəmiyyət kəsb edir. Əks təqdirdə, belə tələbələr öz asudə vaxtlarından səmərəli şəkildə istifadə etmələrini düzgün motivləşdirə bilmirlər. Belə hallarda motivlər mübarizəsi baş verir.

Motivlər mübarizəsi çox kəskin olduğu üçün qərarın qəbulundan qabaq insan gərginlik, nigaranlıq, həyəcan, narahatlıq halı keçirir, onun qarşısında bir neçə mümkün (alternativ) qərar meydana çıxır. Hələ son nəticənin qəti müəyyən edilmədiyi belə vəziyyətdə bir neçə alternativ qərarın olması daxili ixtilaf hissinin yaranmasına səbəb olur. Hər iki qərarın seçilməsi lehinə inandırıcı dəlillərin olması bu konflikti daha da gücləndirir və uzadır. Əgər samballı, inandırıcı dəlillər təkcə bir mümkün qərar ilə bağlıdırsa, konfilikt çox davam etmir (3, s. 414).

Ali məktəb tələbələrinin auditoriyadankənar tədbirlərə cəlb olunması zamanı fəaliyyət motivlərinin düzgün müəyyənləşdirilməsi onların düzgün qərar verməsinə kömək edir. Yaradıcı qabiliyyətlərə malik olanların bir qismi qərarların qəbul edilməsinə ciddi cəhd göstərə bilmirlər. Təcrübə və müşahidələr göstərir ki, belə tələbələrin yaradıcı fəaliyyətinə müdaxilələr bu işə mane olur. Məsələn, BDU-nun filologiya fakültəsinin tələbələri Şekspirin "Otello" əsərini tamaşaya hazırlamışlar. Dezdemona rolunu müvəffəqiyyətlə məşq edən və məşqlərdə müntəzəm intizam nümayiş etdirən tələbə A.-nın tamaşanın təqdimatına gəlməkdən imtina etməsi tamaşanın təqdimatının pozulmasına səbəb olmuşdur. Məlum olmuşdur ki, tələbə A.-nın valideynləri onun yaradıcı fəaliyyətə cəlb olunmasından yalnız tamaşanın təqdimatı ərəfəsində xəbər tutmuşlar. Bədii yaradıcılıq qabiliyyətlərilə seçilən, güclü intizam hissi ilə məşqlərə davam edən və bədii yaradıcılıq fəaliyyəti ilə məşqul olan tələbə A.-nın ailə mühitindən gələn bu əks təsirlər həmin tələbənin bədii yaradıcılıq qabiliyyətlərinin formalaşdırılmasına son qoymuşdur. Əlbəttə, tələbə A.-nın iradə nümayiş etdirməməsi onun qərar cixara bilməməsinə mane olmuş və tamaşanın təqdimatına gəlməkdən imtina etmişdir. Ailə mühitindən gələn əsas təsirlərdən stress keçirən tələbənin səhhətində də qüsurlar baş vermişdir. Belə psixoloji təsirlərin hesabına yaranan streslər yaradıcı qabiliyyətlərin inkişafının qarşısını almış olur.

Bəzi hallarda qərar qəbulunun özü stressə yaxın bir vəziyyət kəsb edən böyük daxili gərginlik ilə bağlı olub, insandan özündəki digər qüvvətli tələbatlardan doğan təsirləri rədd etməyi tələb edir. Belə daxili manelərin (bəzi istəklərini, möhkəmləndirilmiş pis adətlərin, məişətdə adət halına keçmiş, daxili əxlaqi prinsiplər baxımından özünü doğrultmayan hadisələrin) aradan qaldırılması zərurəti iradi səyin olması ilə əlaqədardır. Bu səy iradi işin səciyyəvi keyfiyyətidir (bax: Ümumi psixologiya. V.A.Petrovskinin redaktorluğu ilə. Bakı, Maarif, 1982, səh.415).

Azərbaycanın klassik aktyorluq məktəbinin ən görkəmli nümayəndələrindən olan Münəvvər Kələntərlinin teatra gəlməsinə mane olan ailə mühitinin neqativ xarakterli tövsiyələrinə baxmayaraq, o, böyük iradə nümayiş etdirmiş, bədii yaradıcılıqla planlı, mütəşəkkil olaraq məşğul olmuşdur. Nəticədə fəxri adlara, dövlət mükafatlarına layiq görülən M. Kələntərli çoxsaylı tamaşalarda oynadığı rollar və çəkildiyi filmlərə görə böyük tamaşaçı rəğbəti qazanmış, tamaşaçıların qəlbində öz mənəvi heykəlini ucaltmış, beləliklə Azərbaycan milli teatr salnaməsinin qızıl səhifəsinə çevrilmişdir

Daxili maneələrin dəf edilməsi ilə yanaşı, biz ciddi xarici maneələrin aradan qaldırılması ilə bağlı iradi fəaliyyətə də rast gəlirik. Məqsəd aydındır, ona nail olmağın zəruriliyi heç bir şübhə oyatmır, qərar böyük motivlər mübarizəsi olmadan qəbul olunmuşdur. Lakin qərarın həyata keçirilməsində çətinliklər meydana çıxır. Səbr və inadla gözlənilmədən baş vermiş yeni dəyişiklikləri, şəraiti nəzərə alaraq bu maneələri aradan qaldırmaq lazımdır. Özü də bir-iki dəfə deyil, uzun müddət, həmişə səy göstərmək tələb olunur. Maneələri həmişə aradan qaldırmağa hazır olmaq lazımdır. Bütün bunlar, əlbəttə, insanın uzun muddət gərginlik vəziyyətində

qalmağa məcbur edir. Buna dözmək o qədər də asan iş deyildir (3, s. 416). Ona görə ki, ali məktəb tələbələrinin yaradıcı fəaliyyətə cəlb olunması və istiqamətləndirilməsi bir o qədər çətin olmasa da onların bu fəaliyyətdə mövqe tuta bilməmələri bir sıra çətinliklərlə bağlı olur. Bədii yaradıcı qabiliyyətlərinə malik olan belə tələbələrin ev, yəni mənzil şəraitlərinin pis olması, maddi çətinliklər içərisində yaşamaları qeyd olunan maneələrin yaranmasına səbəb olur. Deməli, daxili və xarici maneələrin səbəbindən bədii yaradıcılıq qabiliyyətlərinin formalaşması ilə bağlı həm kəmiyyət, həm keyfiyyət baxımından inkişaf etdirilərək formalaşdıırılması işində əngəllər yaranır. Unutmaq olmaz ki, tələbələrin yaradıcı qabiliyyətlərinin formalaşdırılması həm kəmiyyət, həm keyfiyyət baxımından düzgün müəyyənləşdirilməlidir. Belə olarsa, ali məktəbdə təhsil alan tələbələrin bu sahədəki fəaliyyətlərinin düzgün tənzimlənməsinə nail olmaq olar.

Psixologiya tarixində qabiliyyətlərin kəmiyyət baxımından ölçülməsi XIX əsrin sonları və XX əsrin əvvəllərinə təsadüf edir. Həmin dövrdə bir sıra psixoloqlar (Kettel, Termen, Spirmen və başqaları) kütləvi ixtisaslar üçün daha münasib namizədlər seçmək işini sahmana salmaq məqsədilə insanların qabiliyyət səviyyələrini aşkara çıxarmaq təklifini irəli sürmüşlər. Bunun üçün məqsəd qabiliyyətinə görə şəxsiyyətinə yerini və onun bu və ya digər əmək fəaliyyətinə, məsələn, ali məktəblərdə təhsil almağa, istehsalatda, orduda və ictimai həyatda, bədii yaradıcılıqda yüksək vəzifələri tutmağa nə dərəcədə yararlı olduğunu müəyyən etmək olmuşdur (4. s. 422). Deməli, ali məktəb tələbələrinin auditoriyadankənar tədbirlərə cəlb olunması zamanı onların bədii yaradıcılığa istiqamətləndirilməsi onların gələcəkdə ictimai həyatda, eləcə də dövlət vəzifələrində yüksək mövqe tutmalarına komək göstərmiş olur. Bütün bunlar deməyə əsas verir ki, ali məktəb tələbələrinin auditoriyadankənar tədbirlərə istiqamətləndirilməsi və bu zaman yaradıcı fəaliyyətə cəlb olunması onların estetik bədii zövqləri ilə yanaşı hərtərəfli inkişafını da təmin etmiş olur.

Nəticə etibarilə qeyd edə bilərik ki, ali məktəblərin auditoriyadankənar tədbirlərinə cəlb olunan tələbələrin bədii yaradıcılıq fəaliyyətinə istiqamətləndirilməsi onların asudə vaxtlarının səmərəli təşkilinə, estetik tərbiyəsinin inkişafına və bədii yaradıcılıq qabiliyyətlərininin formalaşdırılmasına təsir göstərmiş olur.

**Məqalənin aktuallığı.** Auditoriyadankənar tədbirlərin köməyilə tələbələrin bədii yaradıcılıq qabiliyyətlərinin formalaşdırılması diqqət mərkəzinə gətirilir.

**Məqalənin elmi yeniliyi.** Məqalədə ilk dəfə olaraq ali məktəblərin auditoriyadankənar tədbirlərinə cəlb olunan tələbələrin bədii yaradıcılıq qabiliyyətlərinin formalaşdırılması işinin həm pedaqoji, həm psixoloji əsasları öz əksini tapır. Bu, məqalənin elmi yeniliyi kimi dəyərləndirilir.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Məqalədən ali məktəb rəhbərləri, ali məktəblərdə auditoriyadankənar tədbirlərə rəhbərlik edənlər və bədii yaradıcılıq problemi ilə məşqul olan tədqiqatçılar yararlana bilərlər.

## Ədəbiyyat

1. Kazımov N.M. Ali məktəb pedaqogikası. Bakı: Nicat, 1999.
2. Bayramov Ə.S., Əlizadə Ə.Ə. Psixologiya. Bakı: Çinar-Çap, 2002.
3. Ümumi psixologiya. Ali məktəblər üçün dərs vəsaiti / V.A.Petrovskinin red. ilə. Bakı: Maarif, 1982.
4. Seyidov S.İ., Həmzəyev M.Ə. Psixologiya: Ali pedaqoji məktəblərin bakalavr pilləsi üçün dərslik. Bakı, 2016.

5. Sadiqov F.B.. Ümumi pedaqogika. Bakı: Maarif, 2018.
6. Sadıqov F.B., Tahirova Ş.Ş., Quliyev A.İ., Mövsümlü A.M. Ali məktəb pedaqogikası. Bakı: Gənclik, 2020.

**А А.М. Мовсумлу**

## Художественное творчество студентов во внеучебной деятельности формирование способностей

### Резюме

В статье рассматривается вовлечение студентов вузов во внеучебную деятельность. Отмечается, что вовлечение учащихся в художественную деятельность во внеклассную деятельность, наряду с их художественным творчеством, обеспечивает их всестороннее развитие. В статье также рассматривается выявление педагогических и психологических основ формирования внешкольных художественных способностей студентов во внешкольной деятельности.

**A.M. Movsumlu**

## Formation of students' creative abilities in extracurricular activities

### Summary

The article discusses the formation of students' creative abilities in out of lesson activities. Its shown that beside the attraction of students to the extracurricular activities its also ensures their comprehensive development. The article also discusses the identification of pedagogical and psychological bases of the students artistic creativity in out of lesson activities for the formation of their creative ability.

**Redaksiyaya daxil olub:** 29.09.2020